# AZƏRBAYCAN VƏ GÜRCÜSTANIN KÜR ÇAYININ EKOLOJİ VƏZİYYƏTİNİN NORMALLAŞDIRILMASI İLƏ BAĞLI SƏYLƏRİ

**Aysel Zeynalova**

*AMEA-nın Qafqazşünaslıq İnstitutu, Bakı*
*alis100a@gmail.com*

İki ölkə arasında əməkdaşlıq və Kür çayı hövzəsi idarəçiliyində uyğunlaşma əldə etmək məqsədilə 2000-ci ildən etibarən bir çox transsərhəd layihələr həyata keçirilmişdir. İki ölkə arasında ətraf mühitin mühafizəsi ilə bağlı da bir sıra əməkdaşlıq sazişləri olmuşdur.

Kür üç ölkəni birləşdirən ən böyük transsərhəd çaylardan biridir. Öz başlanğıcını Türkiyənin şərqində dəniz səviyyəsindən 2200-2700 m hündürlükdən götürən bu çay Gürcüstanın şərq hissəsi ilə axır, Azərbaycanın sərhədini keçir, ilkin olaraq Mingəçevir su anbarına, sonra isə Xəzər dənizinə tökülür. Çayın ümumi uzunluğu 1515 kilometrdir. Çayın təxminən 174 km-i Türkiyədə, 435 km-i Gürcüstanda, 906 km-i isə Azərbaycandan keçir. Qafqaz regionunda ən böyük su hövzəsi olan Kür çayı Azərbaycanın əsas su

mənbəyidir. Min illərdir Kür çayı ətrafında məskunlaşmış əhali çayın suyundan həm təsərrüfat sahələrinin suvarılması, həm də içməli su kimi istifadə edirdi.

Kür çayı həm onun keçdiyi qonşu ölkələrdə, həm də ölkə ərazisində sənaye və məişət tullantıları ilə çirklənməyə məruz qalmışdır.

Kürü ən çox kirlənməyə məruz qoyan ölkə Gürcüstandır. Azərbaycan Respublikası Ekologiya və Təbii Sərvətlər Nazirliyinin məlumatına görə, Azərbaycanda Kürə ildə 20-25 milyon kubmetr çirkab sular axıdıldığı halda, Gürcüstanda bu rəqəm 350 milyona çatmışdır.

Kür Azərbaycan qədər, Gürcüstanın da ən mühüm su ehtiyatlarından biridir. Yerüstü suların çirklənməsi Gürcüstanda, xüsusən də Tbilisidə mühüm problemdir. Gürcüstanda Kür çayı hövzəsində əsas su istifadəçiləri enerji, kənd təsərrüfatı, sənaye sektorları və bələdiyyələr olmuşdur.

Gürcüstanın Ətraf Mühitin Mühafizəsi və Kənd Təsərrüfatı Nazirliyinin məlumatına görə (2019), şəhərlərə doğru axan çaylar üzvi maddələr, bərk hissəciklər, ammonyak, yuyucu vasitələr və gübrə sənayesinin nitratları ilə çirkləndirilmişdir.

OECD-nin 2021-ci il hesabatı göstərir ki, süzülməmiş kanalizasiya suları Gürcüstanda ən böyük çirklənmə problemlərindən biri olmuşdur.

Azərbaycan ərazisində də yaşayış məntəqələrində formalaşan məişət tullantılarının düzgün idarə olunmaması Kür çayının sahil mühafizə zonasını çirkləndirmişdir. Bu, bilavasitə çayın əlavə çirklənməsinə və suyun keyfiyyətinə mənfi təsir göstərən amil hesab olunur.

Kürün çirklənməsi problemi hər iki dövləti narahat edir və problemin həll olunması istiqamətində həm ayrı-ayrılıqda hər iki dövlət tərəfindən, həm də birgə əməkdaşlıq çərçivəsində müəyyən işlər görülür. Bu məqsədlə aidiyyəti nazirliklər arasında, Azərbaycanda xüsusi qrupun yaradılacağı və həmin qrupun Gürcüstanda aparılan işlərə nəzarət edəcəyi barədə də razılıq əldə olunmuşdur. Azərbaycan və Gürcüstanın ekologiya nazirləri arasında iki dövlətin ekoloji sahədə əməkdaşlığına aid niyyət protokolu imzalanmışdır.

AR Ekologiya və Təbii Sərvətlər Nazirliyi tərəfindən 2020-ci ildə Kür çayı hövzəsinin su ehtiyatlarının vəziyyəti, hövzənin ekoloji deqradasiyasının insan fəaliyyəti ilə əlaqəsi, eləcə də iqlim dəyişikliyi və təbii fəlakətlər kimi qlobal təhlükələrin çayın su ehtiyatlarına potensial təsirləri haqqında biliklərin artırılması məqsədilə ETSN, IDEA, BMTİP-QEF Kür II Layihəsi və digər tərəfdaşların birgə səyləri nəticəsində hazırlanmış "Kür boxçası" adlı tədris vəsaiti 3 dildə (azərbaycan, ingilis və gürcü) oxucuların diqqətinə təqdim olunmuş, eyni zamanda bu dövr ərzində çəkilən 3 sosial çarx sosial şəbəkələrdə paylaşılmışdır.

2021-ci il ərzində Ekologiya və Təbii Sərvətlər Nazirliyi tərəfindən Xəzər dənizinin və qrunt sularının Kür çayının aşağı axarlarında suyun şorlaşmasına təsirinin araşdırılması məqsədilə Kür çayının Sabirabad, Şirvan, Salyan və Neftçala rayonları ərazisindən keçən hissələrində seçilmiş məntəqələr üzrə tədqiqat işləri aparılmış və təkliflər hazırlanmışdır.

Gürcüstanda da bu problemin həlli istiqamətində səylər müşahidə edilir. 2017-ci il fevralın sonunda Tbilisi meriyası paytaxt ərazisində Kür çayının təmizlənməsinə başlamışdır. Çaydan lil, zibil və bitki qalıqları çıxarılmışdır, lakin bu əməliyyatlar suyun keyfiyyətinə əhəmiyyətli təsir göstərməmişdir. "Tbilservi Group"un direktorunun birinci müavini Davit Dolidzenin sözlərinə görə, təxminən 1 ay ərzində Kürdən 4500 kubmetrə qədər tullantı çıxarılmışdır. O, əlavə etmişdir: "Orada kifayət qədər çox plastik butulkalar və müxtəlif plastik əşyalar var idi. Təbii ki, onilliklər boyu davam edən natəmizlik səbəbindən iri otlar və yabanı ağaclar, bitkilər bitmişdi. Fiziki cəhətdən gedə bilmədiyimiz yerlərdə biz xüsusi avadanlıqlarla işləyirdik. Yaxınlaşa bildiyimiz yerlərin hamısı təmizləndi."

Gürcüstanda 10 may 2019-cu ildən Cinayət Məcəlləsinin 58-ci maddəsinin birinci hissəsinə əsasən, su obyektlərinin çirkləndirilməsi, zibillənməsi, tullantıların və digər kütləvi kütlələrin su obyektlərinə atılması ilə bağlı cəzalar tətbiq edilməkdədir. Sözügedən qanun pozuntusuna görə 200-dən 300 lariyə qədər cərimə nəzərdə tutulur.

Gürcüstanda mövcud tullantı sularının filtrasiya sistemlərinin yenilənməsi və yeni infrastrukturun qurulması, bunun vasitəsilə suyun çirklənməsinin sağlamlığa zərərli təsirlərini azaltmaq üçün böyük səylər və siyasi iradə nümayiş etdirmək lazımdır. Bu, ilk növbədə Tbilisidə suyun keyfiyyətini yaxşılaşdırmaqla yanaşı, Rustavi və Azərbaycanda su istifadəçilərinə də fayda verəcəkdir.